


# Turizm: Yeni hədəflərə doğru

***❐ Son illər Azərbaycanın turizm sektorunda da inkişaf tendensiyası özünü qabarıq göstərir. Xatırladaq ki, ölkəmizdə bu sahənin tərəqqisi üçün geniş potensial imkanlar vardır. Təsadüfi deyil ki, dünyada olan 11 iqlim qurşağından 9-u respublikamızda mövcuddur. O da bəllidir ki, bir sıra dünya dövlətlərinin iqtisadiyyatında turizm aparıcı yer tutur. Belə ki, dövlət büdcəsinin əsas hissəsi bu sahədən gələn gəlir hesabına formalaşır.***

Ümumiyyətlə, turizm sektoru ölkəmiz üçün bir neçə cəhətdən – iqtisadiyyatın güclənməsi, bölgələrin inkişafı və Azərbaycanın bütün dünyada tanıdılması baxımından səciyyəvidir. Prezident İlham Əliyev turizmin əhəmiyyəti barədə danışarkən deyib: “Turizm sahəsi həm regionların inkişafı, həm də ki, ölkənin iqtisadi potensialının möhkəmlənməsi üçün, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir. Bizim çox gözəl təbiətimiz var. Bəlkə nadir ölkələrdən biriyik ki, burada istənilən təbii şərait, istənilən iqlim var”.

Məlum olduğu kimi, Azərbaycan neft ölkəsi kimi dünya iqtisadi bazarında müəyyən söz sahibidir. Ölkənin iqtisadi inkişafının davamlılığının təmin olunmasında neft və qaz amilindən asılılığın azaldılması məqsədilə qeyri-neft sektorunun müxtəlif sahələrinin inkişaf etdirilməsi zərurətdir. Qeyri-neft sektoru kimi turizm sahəsi də çox əhəmiyyətlidir.

Prezident İlham Əliyevin 2016-cı il dekabrın 6-da imzaladığı fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi” Azərbaycanda turizmim gələcək hədəflərini müəyyənləşdirmişdir. Bu sənəddə 2020-ci ilədək olan dövrdə Bakının turizm potensialının tam istifadə edilməsi, milli səviyyədə daha yaxşı idarəetmənin təşkili, turizm zonalarının yaradılması, viza prosedurlarının sadələşdirilməsi, regionlarda turizmin inkişaf etdirilməsi və digər məsələlər nəzərdə tutulmuşdur.

Yol xəritəsinin qəbul edilməsindən ötən dövr ərzində ölkəmizə turist axını xeyli çoxalmışdır. Bunun da əsas səbəbi dövlətimizin bu sahəyə xüsusi önəm verməsi ilə bağlıdır.

Qeyd edək ki, Azərbaycanın zəngin iqlim-təbiət potensialına malik olması turizmin inkişafına güclü təkan verir. Son zamanlar Azərbaycan Respublikasında turizm infrastrukturunun genişləndirilməsi, səmərəli şərtlərlə turizm obyektlərinin istifadəyə verilməsi və bu istiqamətdə ölkə rəhbərimiz Prezident İlham Əliyevin imzaladğı sənədlər dövlətin turizm sənayesinin inkişafını daim diqqətdə saxladığını nümayiş etdirir.

Ölkəmizdə turizmin inkişafı üçün qəbul olunan proqramlarda turizmin inkişafını təmin edəcək bazanın yaradılmasına, müasir tələblərə cavab verən sistemin formalaşdırılmasına və digər fəaliyyət istiqamətlərinin genişləndirilməsinə xüsusi yer verilir.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan Dövlət Turizm Agentliyinin yaradılması dövlət başçımızın bu sahəyə olan xüsusi diqqət və qayğısından xəbər verir. Qısa müddət ərzində turizm sahəsinin inkişafı istiqamətində bir sıra işlər görən agentlik hazırda yeni layihələrin reallaşdırılmasına xüsusi diqqət yetirir. Bu yaxınlarda ictimaiyyətə təqdim olunacaq Azərbaycanın yeni turizm brendi bu qəbildəndir.

Həmin mərasimdə Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Senqstşmid “Azərbaycan turizm strategiyası-2023” barədə geniş məlumat verib. O deyib: “Turizm sahəsi bizi birləşdirir. Bu sahə insanların həyatına böyük təsir göstərir. İlk dəfə Azərbaycana gələndə bu ölkənin inkişafının şahidi oldum. Dünyanın hər bir ölkəsi özünü gözəl mənzərələri, təbii sərvətləri, insan resursları, müasir inkişafı ilə tanıtmağa çalışır. Vacibdir ki, bu qlobal rəqabətdə fərqliliyini göstərəsən.

Turizm həssas bir sahədir. Bir sıra xidmətləri uzun müddət saxlamaq olmur. Əvvəlcə biz bu sahədə təhsil və keyfiyyətin səviyyəsini artırmalıyıq. Doqquz sütun əsasında dayanıqlı turizm strategiyası hazırlamışıq. Bunlar təşkilati çərçivə (turizm siyasəti), araşdırma və inkişaf, innovasiya və texnologiya, hüquqi çərçivə və vergilər, infrastruktur inkişafı, dövlət-biznes əməkdaşlığı, turizm təcrübəsi, brend, marketinq və kommunikasiya, turizm strategiyasından ibarətdir. Bu strategiya Azərbaycan turizminin inkişafına böyük təkan verəcək və ölkəyə turist axınını sürətləndirəcək. İlin sonunadək Dövlət Turizm Agentliyinin 6 ölkədə nümayəndəliyi fəaliyyət göstərəcək”.

Turizm daim inkişafda olan sahədir. Azərbaycanda bu inkişaf ildən-ilə təkmilləşir. Yeni otellər tikilir, regionlara yollar çəkilir, turizm sahəsində keyfiyyətli kadr hazırlığına diqqət artırılır.

Artıq Azərbaycanda turizmin strateji hədəfləri də müəyyənləşdirilmişdir. Əsas məqsəd 2025-ci ildən sonrakı dövrdə Azərbaycanı dünyada turistlərin ən çox üstünlük verdikləri 20 turizm məkanından birinə çevirmək, mövcud turizm ehtiyatlarından səmərəli istifadənin maksimuma çatdırılmasını təmin etməkdir.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***



